# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

# Q Ə R A R

**«Ətrafında** 200 **metr radius çərçivəsində yığıncaqların**, **mitinqlərin**, **nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi**, **rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı»nın təsdiq edilməsi haqqında**

«Sərbəst toplaşmaq azadlığı haqqında» Azərbaycan Respublikasının Qanununa dəyişikliklər və əlavələr edilməsi barədə» Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 24 iyun tarixli 787 nömrəli Fərmanının 1.3-cü bəndinin və «Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı»nın təsdiq edilməsi haqqında» Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2008-ci il 27 sentyabr tarixli 234 nömrəli qərarının icrasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır**:

1. «Ətrafında 200 metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların siyahısı» təsdiq edilsin (əlavə olunur).
2. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri**: **Ə.Baxşıyev**

07 oktyabr 2008-ci il

№ 88

Naxçıvan Muxtar Respublikası Nazirlər
Kabinetinin 2008-ci il 07 oktyabr tarixli
88 nömrəli qərarı ilə təsdiq edilmişdir

**«Ətrafında** 200 **metr radius çərçivəsində yığıncaqların, mitinqlərin, nümayişlərin və küçə yürüşlərinin keçirilməsi qadağan edilə bilən mərkəzi, rayon və şəhər icra hakimiyyəti orqanlarının yerləşdiyi binaların**

**SİYAHISI**

1. Naxçıvan Muxtar Respublikasının mərkəzi icra hakimiyyəti orqanları:

Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin inzibati binası;

Naxçıvan Muxtar Respublikası Dövlət Gömrük Komitəsinin inzibati binası;

Naxçıvan Sərhəd Diviziyasının inzibati binası;

Naxçıvan Muxtar Respublikası Ədliyyə Nazirliyinin inzibati binası;

Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin inzibati binası;

Naxçıvan Muxtar Respublikası Milli Təhlükəsizlik Nazirliyinin inzibati binası;

705 saylı Hərbi Hissənin inzibati binası;

Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyinin inzibati binası;

Naxçıvan Muxtar Respublikası Maliyyə Nazirliyinin inzibati binası;

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Naxçıvan Muxtar Respublikasındakı İdarəsinin inzibati binası.

2. Naxçıvan Muxtar Respublikası rayon və şəhər icra hakimiyyəti orqanlarının inzibati binaları.